**Azərbaycan ədəbi-bədii fikrinin inkişaf tarixində milli istiqlal ideyalarının bədii təcəssümünü ustalıqla ifadə etmiş nadir sənətkarlar sırasında Əhməd Cavadın xüsusi yeri var. O, klassik poetik ənənəni davam etdirən söz ustası, milli özünüdərkin, azadlıq və istiqlal məfkurəsinin poeziya təmsilçisidir. Əhməd Cavadın yaradıcılığı Azərbaycan xalqının XX əsrdə keçdiyi mürəkkəb ictimai-siyasi mərhələlərin poetik salnaməsidir. O, ədəbiyyata gəldiyi ilk gündən xalqın azadlıq və istiqlal arzularını ifadə etmiş, poeziyası bütöv bir millətin siyasi taleyi ilə bağlı olan böyük idealların carçısına çevirib. Xalqın mənəvi özünüdərki, milli kimlik şüurunun oyanışı və azad yaşamaq haqqı kimi fundamental anlayışlar onun şeirlərində bədii ustalıqla tərənnüm olunmuşdur. Əhməd Cavadın dövlət rəmzlərinə - bayraq, gerb, himnə münasibəti milli dövlətçiliyin poetik legitimləşdirilməsinə yönəlmiş vətəndaş mövqeyidir. Bu xüsusda, onun müstəqil Azərbaycan Respublikasının dövlət himninin sözlərinin müəllifi kimi fəaliyyəti ayrıca dəyərləndirilməlidir.**



# Poeziyada azadlıq ideallarının carçısı

Mayın 5-də Əhməd Cavadın anadan olmasının 133-cü ili tamam olur. 2022-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə böyük şairin anadan olmasının 130 illiyi dövlət səviyyəsində qeyd olundu. Bu, milli yaddaşın qorunması və dövlətçilik ənənələrinin ədəbiyyat vasitəsilə gələcək nəsillərə ötürülməsi baxımından önəmli hadisə idi. Əhməd Cavad 1892-ci ildə Gəncə qəzasının Şəmkir dairəsinin Seyfəli kəndində, ruhani ailəsində dünyaya gəlmişdir. Atası axund Məmmədəli dövrünün savadlı və nüfuzlu din xadimlərindən idi. Atasının ölümündən sonra anası Yaxşı xanımın himayəsində böyüyən Əhməd ilk təhsilini molla məktəbində alıb, daha sonra Gəncədəki Müsəlman Ruhani Seminariyasında oxuyub. 1913-cü ildə müəllimlik şəhadətnaməsi alaraq Şəmkir, Gədəbəy, Zaqatala və Gəncədə pedaqoji fəaliyyətlə məşğul olub.

Birinci Dünya müharibəsi zamanı cəbhədə müxbirlik, xeyriyyə cəmiyyətlərində təşkilatçılıq fəaliyyəti göstərməsi isə onun ictimai mövqeyinin yalnız poeziya ilə məhdudlaşmadığını göstərir. O, döyüş bölgələrində - Dağıstan, Batum, Qars, Ərdəhan və Türkiyənin digər şəhərlərində əhaliyə həm mənəvi dəstək, həm də təşkilati yardım göstərmiş, xüsusilə türkdilli xalqlarla bağlılığı daha da dərinləşdirmişdir.

Əhməd Cavadın Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılması və təşəkkülündə iştirakı ideoloji-siyasi yönümlü bir ziyalı kimi müstəqil dövlətçilik ideyasını həm publisistik, həm də poetik vasitələrlə legitimləşdirməyə çalışan fəal ictimai xadim kimi tanınıb. Cümhuriyyət dövründəki fəaliyyəti - maarifçilik, mətbuatla iş, milli mədəniyyətin təşviqi sahəsində atdığı addımlar onu dövrün qabaqcıl dövlət qurucularından biri kimi dəyərləndirib. 1920-ci ilin aprelində Cümhuriyyətin süqutundan sonra Əhməd Cavadın fəaliyyəti repressiv sovet rejimi tərəfindən məhdudlaşdırılsa da o, millimənəvi missiyasından geri çəkilmədi. Müəllimlik fəaliyyətini davam etdirən şair, eyni zamanda Azərbaycan ziyalılığının yeni mərhələsinə öz töhfəsini verməyə çalışdı. Quba qəzasının Xuluq kəndində müəllim işləməsi, burada türk və rus dillərindən dərs deməsi, o dövr üçün həm pedaqoji, həm də siyasi baxımdan mühüm hadisə idi. 1922-ci ildə Bakıya gələrək Azərbaycan Ali Pedaqoji İnstituna daxil olması, burada təhsilini başa vurduqdan sonra müxtəlif ali təhsil ocaqlarında - Nərimanov adına texnikumda, Pambıqçılıq İnstitutunda (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) müəllim, dosent, professor və nəhayət kafedra müdiri kimi çalışması onun elmi-pedaqoji fəaliyyətinin sistemli və davamlı şəkildə inkişaf etdiyini göstərir. O, Azərbaycanın ali təhsil məkanında ilk türkoloq və filoloqlardan biri kimi elmi-tədris sistemində müasir dünya təcrübəsinə söykənən yanaşmalar tətbiq edib. Əhməd Cavad müəllimlik fəaliyyətinə 29 il həsr etməsi, ibtidai sinif müəllimliyindən başlayaraq ali məktəbin kafedra müdiri səviyyəsinə qədər yüksəlməsi təkcə şəxsi zəhmətin nəticəsi deyil, həm də sovet hakimiyyətinin ona qarşı sərgilədiyi təzyiqlərə baxmayaraq, milli kimlik uğrunda yorulmadan mübarizə aparmasının göstəricisidir. Onun AXC dövründə tərtib etdiyi "Azərbaycan dilinin sərf və nəhvi" adlı ilk dərsliyi həm dilçilik elmini, həm də müstəqil dövlətin ideoloji bazasının yaradılmasında əvəzsiz rol oynayıb.

Ə.Cavad həm də rus dili üzrə professor rütbəsi almış ilk azərbaycanlı alim idi. Onun səkkiz-on dildə sərbəst danışa, oxuya və yaza bilməsi intellektual potensialının göstəricisi, həm də o dövrdə kosmopolit bilik sisteminə malik bir ziyalının yetişməsi baxımından önəmlidir. Gəncə mədrəsəsində Hüseyn Cavid kimi dərin təfəkkürlü filosof-şairdən, Abdulla Sur kimi ədəbiyyatşünasdan dərs alıb. Ədəbi təxəllüsünü Türkiyənin məşhur istiqlal şairi Əhməd Cavadın adından götürməsi də onun pantürkist ideoloji mövqeyini və türk dünyası ilə mənəvi bağlılığını əks etdirir. Beləliklə, eyni dövrdə türk dünyasında iki Əhməd Cavad biri Anadolu, digəri Azərbaycan türklərinin azadlıq ideallarını poeziyaya çevirirdilər.

Onun ictimai fəaliyyətinin mühüm istiqamətlərindən biri də Azərbaycan Xeyriyyə Cəmiyyətindəki fəaliyyəti idi. Məsul katib kimi cəmiyyətdə çalışaraq xüsusilə Seyfəli kəndində məktəb və uşaq bağçalarının, Könüllü kəndində sosial obyektlərin tikintisində Hacı Zeynalabdin Tağıyev kimi xeyriyyəçilərlə birlikdə iştirak etmişdir. Bu fəaliyyət xalqın sosial rifahının yüksəldilməsi istiqamətində atılmış önəmli addım kimi qiymətləndirilir. Məhz həmin xidmətlərinə görə M.Müşfiq Könüllü kəndini "Cavadkənd" adlandıraraq ona şeir həsr etmişdi.

1920-ci ildən sonra qurulan sovet rejimi Əhməd Cavadın milli istiqlal ruhunu, maarifçilik fəaliyyəti və siyasi düşüncəsini qəbul etmədi. Onun hüquqları pozulur, yaradıcılığına senzura tətbiq edilir və əngəllər yaradılırdı. 1923-cü ildə Müsavat liderlərindən Mirzəbala Məmmədzadənin Türkiyəyə qaçırılmasında ittiham edilərək həbs olunur. Həmin dövrdə Xuluq kəndindəki müəllim yoldaşı H.Musayevin Cavadın azad olunması üçün M.C.Bağırovla görüşür və onun azadlığa buraxılmasına nail olur. Şairə qarşı ən ciddi və haqsız təqiblərdən biri də onun məşhur "Göygöl" şeiri ilə bağlı idi. Şeir Azərbaycanın təbii gözəlliyini və milli ruhu yüksək səviyyədə ifadə edirdi. Həmin dövrün nüfuzlu mədəniyyət xadimlərindən Səttar Ağamalıoğlunun şeirlə bağlı söylədiyi "Kim deyər ki, Azərbaycanın Puşkini yoxdur? Cavad Azərbaycan ədəbiyyatının Puşkinidir" fikri Əhməd Cavadın poeziyasına verilən yüksək qiymət olsa da bu yanaşma sovet rejiminin sərt ideoloji senzurası ilə ziddiyyət təşkil edirdi. Bədxahların "Göygöl" şeirinin antisovet ruhlu olduğu iddiası isə onun yenidən həbsinə səbəb olmuşdu. Bu iddiada sovet dövrünün ideoloji mühərriklərini anlamaq mümkündür: rejim təkcə silahlı müqaviməti deyil, şairanə və məcazlarla ifadə olunmuş milli düşüncəni də təhlükə kimi qəbul edirdi. Bu fakt sovet ideoloji aparatının mədəniyyət sahəsinə dərin nüfuzunu və ədəbi mətnləri siyasi kontekstdə necə manipulyasiya etdiyini açıq şəkildə göstərirdi. Beş-altı ay davam edən istintaq prosesində "Göygöl" şeirindən heç bir siyasi motiv və ya antisovet çağırış çıxara bilmədikləri üçün şairi məcburən azad edirlər. Lakin bu azadlıq müvəqqəti idi. Ə.Cavad 1920-1937-ci illər arasında bir neçə dəfə həbs olunmuş, ideoloji təzyiqlərlə üzləşmişdi. Bu müddət ərzində onun ədəbi nüfuzu və cəmiyyətə təsiri artsa da, sovet rejiminin gözündə o, potensial "xalq düşməni" idi. 1937-ci ilin martında onu Azərbaycan Yazıçılar İttifaqından xaric etmələri bu siyasi təcridin rəsmi təzahürü idi. Həmin il iyunun 4-də H.Cavid, M.Müşfiq və V.Xuluflu ilə birlikdə həbs olunması repressiyalar daha geniş, sistemli şəkildə həyata keçirildi və əsasən fikir adamları hədəfə alınırdı. Həm də bu həbslər milli mədəniyyətə qarşı sistemli kampaniyanın tərkib hissəsi idi. 1937-ci ilin oktyabr ayının 12-dən 13-nə keçən gecə Əhməd Cavadın cəmi 15 dəqiqəlik formal məhkəmə iclası nəticəsində güllələnmə cəzasına məhkum edilməsi sovet ədalət sisteminin nə qədər iflasa uğramış, formal və repressiv xarakter daşıdığını aydın göstərir. Məhkəmə heç bir hüquqi əsas, arqument və sübut olmadan həyata keçirilmişdi. Əhməd Cavadın qətli ilə bağlı müxtəlif mənbələr fərqli versiyalar irəli sürürlər. Repressiya qurbanlarının qətlə yetirilməsi ilə bağlı informasiyanın məqsədli şəkildə gizlədilməsi, ailələrin məlumatlandırılmaması və cəsədlərin gizli şəkildə dəfn olunması həmin dövrün qəddarlığını göstərir. Bundan əlavə, mətbuat səhifələrində Əhməd Cavada qarşı böhtan və iftira kampaniyası aparılırdı. Onun ailəsi təzyiqlərə məruz qalmış, evində axtarış aparılmış, şəxsi əmlakı, hətta həyat yoldaşı Şükriyyə xanımın bəzək əşyaları müsadirə olunmuşdu. Sovet rejimi üçün fərdi cəzalandırmaq kifayət etmirdi, onunla ideya, hətta bioloji bağlı olanlar belə susdurulurdu. Cavadın həyat yoldaşı Şükriyyə xanım "xalq düşməninin arvadı" damğası ilə azyaşlı uşaqları ilə birlikdə həbsə atıldı. Yeddi illik sürgün həyatı, sovet cəza sisteminin insanları necə mənəvi olaraq sındırdığını göstərir. Şükriyyə xanımın Bakıya - doğma şəhərinə qayıtmasına belə imkan verilməməsi, sistemin hətta azad olunmuş fərdləri belə nəzarət altında saxlamaq siyasətinin tərkib hissəsi idi. Lakin tarix ideoloji diktatın yaratdığı saxta "həqiqətləri" sarsıdır. 1953-cü ilin dekabrında - Stalinin ölümündən sonra başlanan qısamüddətli "istiqlal nəfəsi" dövründə Əhməd Cavadın ailəsinə bəraət verildi. Bu bəraət, formal olsa da tarixi ədalətin başlanğıcı idi. Onun ardınca ədəbi irsin yenidən cəmiyyətə qaytarılması prosesi başladı. 1958-ci ildə "Şeirlər", 1961-ci ildə isə "Sən ağlama, mən ağlaram" adlı toplularının nəşri sovet dövründə susdurulmuş milli poeziyanın dirçəlişi idi. Bu əsərlərin çapı Azərbaycan oxucusunun ədəbi yaddaşının bərpasına yönəldi.

Əhməd Cavad həm də tərcüməçi idi. Onun dilimizə tərcümə etdiyi dünya ədəbiyyatının klassik nümunələri - Fransua Rableyin "Qarqantua və Pantaqruel"i, Şekspirin "Otello" və "Romeo və Cülyetta"sı, Rustavelinin "Pələng dərisi geymiş pəhləvan"ı Azərbaycan dilinin fəlsəfi və poetik imkanlarını genişləndirən, xalqın dünyagörüşünü zənginləşdirən mədəni körpülər idi. Bütün bu xidmətlər nəticəsində Əhməd Cavadın adı tarixdəki yerini yalnız poeziya ilə deyil, həm də milli dövlətçilik düşüncəsinin ifadəçisi kimi bərpa edib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə onun əsərlərinin dövlət varidatı elan olunması bu xidmətlərin hüquqi-mədəni təsdiqi oldu.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 4 may (№90).-